*Nigar Ağabala qızı GÜLMALIYEVA*
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ BƏRPASINDA BİZNESİN ROLUNUN ARTIRILMASI

**_Xülasə_**

Məqalədə biznes subyektlərinin ətraf mühitin sağlamlaşdırılmasında rolu xarakterizə olunmuşdur. Ümumbəşəri problemə çevrilmiş ekoloji böhranın aradan qaldırılmasında biznes təmsilçilərinin fəallığının artırılması imkanları nəzərdən keçirilmişdir. Milli iqtisadiyyatın dayanıqlı və innovasiyalı inkişafında biznes subyektlərinin rolunun artırılması istiqamətləri göstərilmişdir. Yaşıl iqtisadiyyata keçidin iqtisadi və institusional məsələlərinə münasibət bildirilmiş, onların həllində biznesin artan rolunun təmin edilməsi zəruriliyi əsaslandırılmışdır.

***Açar sözlər: biznes, ətraf mühit, mühafizə, dayanılı inkişaf, yaşıl iqtisadiyyat.***

***

Ümummilli lider Heydər Əliyev milli biznesin inkişafına daim qayğı göstərmiş, biznes subyektlərinin ətraf mühitin mühafizəsi və bərpasında fəallığının təşviqinin zəruriliyini bildirmişdir. Ulu öndər əksər beynəlxalq təşkilatlardan xeyli əvvəl ekoloji böhranın mənfi nəticələri barədə xəbərdarlıq etmiş, onların aradan qaldırılması yolları barədə əsaslandırılmış fikirlər söyləmişdir.

Milli iqtisadiyyatın lokomotivi sayılan biznesin inkişafında iqtisadi-ekoloji səmərəlilik meyarlarına üstünlük verilməsi müasir dövrdə və yaxın perspektivdə gündəlikdə olacaq məsələlərdəndir. Qlobal və milli miqyasda ətraf mühitin mühafizəsi, bərpası və karbon emissiyalarının minimuma endirilməsini nəzərdə tutan enerji səmərəliliyi biznes mühitinin tənzimlənməsi baxımından aktual olaraq qalır. Ölkəmizdə biznesin ekoloji fəaliyyət sistemi və arealı formalaşma mərhələsindədir. Odur ki, hələlik "Azərbaycanda ətraf mühitlə bağlı investisiyaların əsas hissəsi dövlət şirkətləri tərəfindən həyata keçirilmişdir" [1]. Məsələ ondadır ki, biznesin ətraf mühitin qorunması və yaxın perspektivdə bərpası üçün biznes subyektlərinin, xüsusilə mikro və kiçik biznesin imkanları məhduddur.

Tənzimlənən bazar iqtisadiyyatı şəraitində biznes təmsilçilərinin ekoloji fəaliyyətinin nəticəyönümlü təşviqi səviyyəsi, burada sivil münasibətlərin təşəkkülü dərəcəsini əks etdirir. Klassik baxımdan, dövlətin iqtisadiyyatda tənzimləmə obyektləri qismində iqtisadi tsikllər, iqtisadi və sosial münasibətlər, məşğulluq, əhali gəlirləri, qiymətlər, antiinflyasiya prosesləri ilə yanaşı ətraf mühitin mühafizəsi və bərpası münasibətləri xüsusi qeyd edilməlidir. Yaşıl iqtisadiyyata keçid dövründə ətraf mühitin mühafizəsi və bərpası, təbii resurslara qənaət iqtisadiyyatın tənzimlənməsinin prioriteti kimi önə çıxır.

Biznesin ekoloji meyarlara uyğun səmərəli fəaliyyəti, hər şeydən əvvəl aşağıdakıları tələb edir:

- adekvat normativ –hüquqi bazanın möhkəmlənməsi;
- institusional islahatların optimallaşdırılması;
- əlverişli investisiya mühitinin təşəkkülü;
- innovasiyalı fəaliyyətin stimullaşdırılması;
- yaşıl fəaliyyətin rəqabət üstünlüklərinin reallaşdırılması;
- mütərəqqi idatrəetmə sisteminin bərqərar olması və s.

Ekoloji biznes (sahibkarlıq) inkişaf etdikcə biznesin ətraf mühitin qorunması və bərpasında rolu daha əhəmiyyətli olacaqdır. Müasir dövrdə, aşağıdakı mənbədə göstərildiyi kimi, "biznes (sahibkarlıq)" anlayışı ilə ekologiya anlayışının birləşməsi eko-sahibkarlığı, yəni yaşıl sahibkarlığı ortaya çıxarmışdır. Məqsəd ətraf mühiti və yaşıllığı qorumaqla yanaşı, iqtisadi cəhətdən davamlı mühit yaratmaqdır. Bir sözlə, yaşıl sahibkarlıq və ya eko-sahibkarlıq cəmiyyətin gələcək ehtiyacları üçün fayda və dəyər istehsal edən bir vasitədir" [2, s.383]. Onu da qeyd edək ki, ekoloji biznes ətraf mühitin sağlamlaşdırılmasına xidmət etməklə yanaşı, öz mənfəətlərini artırmağa da çalışırlar. Əks halda biznes inkişafın daxili motivlərindən məhrum ola bilər. Odur ki, ekoloji biznesin inkişafı üçün əlverişli mühit yaradılmalı, vergi, gömrük, kredit, qiymət, amortizasiya və digər vasitələrlə müvafiq istiqamətdə biznes mühiti yaxşılaşdırılmalıdır.

Milli iqtisadi təhlükəsizliyin mühüm komponenti kimi ekoloji təhlükəsizliyin təmin edilməsində, qabaqcıl təcrübədən göründüyü kimi biznesin rolu mühümdür. Biznesin bu istiqamətdə rolunun artırılmasının perspektivli istiqaməti kimi dövlət - özəl bölmə tərəfdaşlığı yaşıl iqtisadiyyatın formalaşmasında və yaşıl layihələrin icrasında aparıcı mövqe əldə etməkdədir. Bu prosesdə inklüzivlik vacib şərt hesab olunur. Belə ki, ətraf mühitin sağlamlaşdırılması və bərpasına yönəlmiş layihələrin hazırlanması və yerinə yetirilməsində ictimai rəy önəmli hesab edilir, müvafiq qərarların qəbulu zamanı yerli ictimaiyyətin mövqeyinin hərtərəfli nəzərə alınması yaşıl layihələrin uğuru üçün zəmanət hesab edilir. Dövlət-özəl bölmə tərəfdaşlığı da ətraf mühitin mühafizəsi və bərpası layihələrinin müasir çağırışlara uyğun reallaşması baxımından vacib və səmərəli vasitə hesab olunur [3]. Bu halda inzibati resursların cəlb olunması, torpaq və əmlak vergilərinin tutulmasında proqressiv vergi dərəcələrinin, müəyyən güzəşt və imtiyazların tətbiqi nəzərdə tutulur.

Azərbaycanda dayanıqlı inkişaf konsepsiyasının icrası və iqlim dəyişikliklərinin neqativ nəticələrinin aradan qaldırılması istiqamətində davamlı və sistemli tədbirlər həyata keçirilir.

Reallıqda və beynəlxalq təşkilatların sənədlərində göründüyü kimi "iqlim dəyişmələri artıq Azərbaycana mənfi təsir göstərmişdir. Ən çox təsirə məruz qalan sektorlardan biri də su sektorudur. Son illərdə quraqlıq və su ehtiyatlarının azalması müşahidə olunur. Eyni zamanda, dəniz səviyyəsindən aşağı bir çox sahələrdə subasma baş verir" [4, s. 28].

Azərbaycanda 2030-cu ilə qədərki dövrdə sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə biznesin ətraf mühitin mühafizəsi və bərpasında yeri və rolu əsasən səciyyələndirilmişdir. Burada göstərildiyi kimi, "özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır. Yeni və şəffaf özəlləşdirmə strategiyası həyata keçirilməlidir. Biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır" [5]. Doğrudan da, biznes subyektlərinin ətraf mühitin sağlamlaşdırılmasında rolunun artırılması kompleks xarakterli və davamlı tədbirlər həyata keçirilməlidir.

Müasir təsərrüfatçılıqda təbii resurslardan səmərəli və qənaətli istifadə meyarları birgə nəzərdən keçirilməlidir. İqtisadi artım və biznes fəallığı təmiz ekoloji mühitin formalaşması və inkişafında özünəməxsus rola malikdir. "Ölkədə keyfiyyətli və təmiz ekoloji mühit qorunmalı və resurslardan səmərəli istifadə təmin edilməlidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır. Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılmalıdır. Bu məqsədlə ölkədə ümumi ərazidə yaşıllıqların payı artırılmalıdır. İqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır" [5].

Böyük zəfərdən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində başlanmış quruculuq işləri Qarabağda və Şərqi Zəngəzurda 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf prioritetlərində göstərildiyi kimi "həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır" [5]. Ali dövlət rəhbərliyi səviyyəsində işğaldan azad edilmiş ərazilərdə görülən geniş miqyaslı işlərdə ekoloji tarazlığın bərpası istiqaməti prioritet hesab edilmişdir. Bu baxımdan "2020-ci ildə region azad edildikdən sonra "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı [6] xüsusi olaraq qeyd edilməlidir.

İnnovasiyalı biznes, artıq göründüyü kimi ətraf mühitin mühafizəsi və bərpasında, ümumilikdə dayanıqlı inkişafda həlledici rola malik olacaqdır. Bu trenddə rəqəmsallaşma amili artan rola malikdir. Karbon emissiyalarının azaldılması üçün görülən müştəri yönümlü tədbirlərin hərtərəfli əsaslandırılmasında mütərəqqi rəqəmsal texnologiyalardan istifadə imkanları genişləndirilməlidir. Aşağıdakı mənbədə göstərildiyi kimi, dayanıqlı biznes "davranışını dəyişdirmək və müştəriyə hədəflənmiş nəticələr əldə etmək üçün güclü biznes modelinə çevrilir. Davranış dəyişikliyi karbonsuzlaşdırmanın əsas elementlərindən biridir. Müştəri ilə qarşılaşan bir çox sahələrdə biznes modelləri rəqəmsal platformalar kimi ortaya çıxmaqdadır. Bu, biznes- biznes və biznes-hökumət seqmentlərində xüsusilə vacib olacaq, çünki müştərilər onların karbonsuzlaşdırma səylərini dəstəkləyən tərəfdaşlar axtarmağa başlamışlar" [7].

Yaşıl iqtisadiyyatın innovasiyalı inkişafında texnoloji təminatın təkmilləşdirilməsi ətraf mühitin mühafizəsi və bərpasında biznesin rolunun artırılmasının magistral xətti sayılmalıdır. Biznesdə, o cümlədən aqrobiznesdə innovasiyalı yaşıl texnologiyaların əsas funksiyalarına, müvafiq mənbələrinə aşağıdakılar aid edilir:

"- təbii ehtiyatlardan yüksək səmərəli istifadə;
- təbii kapitalın artırılması və ətraf mühitin çirklənməsinin azaldılması;
- biomüxtəlifliyin azalmasının qarşısının alınması;
- gəlir və məşğulluğun artması;
- standart iqtisadi artım modelindən "yaşıl" iqtisadiyyata keçid" [8, s. 98].

Deyilənləri ümumiləşdirərək qeyd edək ki, biznesin ekoloji problemlərin həllində artan rolunun təmin edilməsi dövlətin simasında cəmiyyətin iştirakını tələb edir. Ətraf mühitin sağlamlaşdırılması prosesində biznesin dövlətlə tərəfdaşlığı isə biznes mühitinin yaşıl iqtitsadiyyat tələblərinə uyğunlaşdırılmasını sürətləndirir.

## ƏDƏBİYYAT


1. https://www.adb.org/sites/default/files/linked-documents/cps-aze-2014-2018-sd-04-az.pdf
2. Salmanova, Aydan. (2022). Ekoloji sahibkarlıq: Davamlı gələcəyə aparan yol. 2. 379-384. 10.5281/zenodo.7296859, s.383.
3. Hueskes, Marlies & Verhoest, Koen & Block, Thomas. (2017). Governing public–private partnerships for sustainability. International Journal of Project Management. 10.1016/ j.ijproman. 2017.02.020
4. Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında dayanıqlı inkişaf üzrə əməkdaşlığa dair çərçivə sənədı 2021-2025, 96 s., s.28 https://azerbaijan. un.org/sites/default/ files/2021-06/AZERBAIJAN% 20UNSDCF % 202021-2025_ FINAL %20SIGNED _AZE_0. pdf].
5. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir
6. "2020-ci ildə region azad edildikdən sonra "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı
7. Боркова Елена Аркадьевна. Экологические инновации и "зеленый бизнес": потенциальные возможности для предпринимательства // Известия СПбГЭУ. 2021. №5 (131). URL: https://cyberleninka.ru/ article/n/ekologicheskie-innovatsii-i-zelenyy-biznes-potentsialnye-vozmozhnosti-dlya-predprinimatelstva.
8. Оборин М.С. Инновационные технологии "зеленой" экономики в сельском хозяйстве. Экономика. Налоги. Право. 2019;12(5):90-100, s.98. DOI: 10.26794/1999-849X-2019-12-5-90-100.



***Нигяр Агабала Гюльмалиева***
***докторант Азербайджанского Университета Кооперации***


### Повышение роли бизнеса в охране и восстановлении окружающей среды


***Резюме***

В статье описана роль субъектов бизнеса в улучшении окружающей среды. Рассмотрены возможности повышения активности представителей бизнеса в ликвидации экологического кризиса, ставшего всеобщей проблемой. Обозначены направления повышения роли субъектов бизнеса в устойчивом и инновационном развитии национальной экономики. Выражены отношения к экономическим и институциональным проблемам перехода к зеленой экономике, а также было обосновано необходимость обеспечения повышения роли бизнеса в их решении.



***Ключевые слова: бизнес, окружающая среда, защита, устойчивое развитие, зеленая экономика.***



***Nigar Aghabala Gulmaliyeva***
***PhD student Azerbaijan Cooperation University***


### Increasing the role of business in environmental protection and restoration


***Summary***

The article describes the role of business entities in improving the environment. The possibilities of increasing the activity of business representatives in eliminating the environmental crisis, which has become a universal problem, are considered. The directions for increasing the role of business entities in the sustainable and innovative development of the national economy are outlined. Attitudes to the economic and institutional problems of the transition to a green economy were expressed, and the need to ensure an increased role of business in solving them was justified.



***Key words: business, environment, protection, sustainable development, green economy.***